# "Qələbə" qəzetinin 100 illik yubileyi Salyanın mədəni həyatında əlamətdar hadisə oldu




Salyan rayonunun ictimai-siyasi qəzeti olan "Qələbə"nin 100 yaşı tamam olmuşdur. Tam bir əsr əvvəl, 21 fevral 1924-cü ildə "Qırmızı Muğan" adı ilə nəşr olunan qəzetin yübileyində Azərbaycan Mətbuat Şurasının rəsmiləri, respublikamızın tanınmış elm, sənət adamları, Milli Məclisin deputatı, mərkəzi qəzetlərin təmsilçiləri, bölgə rayonlardan gəlmiş jurnalistlər, Salyan rayonunun ziyalıları, ictimaiyyət nümayəndələri, qəzetin veteranları və oxucuları iştirak etmişlər.

Salyan Rayon İcra hakimiyyətinin dəstəyi ilə təşkil edilmiş tədbirin iştirakçıları əvvəlcə mətbuatın inkişafına daim böyük diqqət və qayğı göstərmiş ulu öndər Heydər Əliyevin şəhərin baş meydanındakı möhtəşəm abidəsini ziyarət edib, önünə tər güllər düzdülər. Sonra mərasim rayon icra hakimiyyətinin akt zalında yubileyə həsr olunan videoçarxın nümayişi ilə davam etdi.

Salyan Rayon İcra hakimiyyətinin başçısı Sevindik Hətəmov "Qələbə"nin yaradıcı heyətinə yubiley münasibətilə təbriklərini çatdırdı. O, hər zaman rayonun ictimai həyatında mühüm rol oynamış, milli məfkurə tribunası olmuş, əhalinin maarifləndirilməsi missiyasını şərəflə yerinə yetirmiş "ağsaqqal" qəzetin fəaliyyətini yüksək dəyərləndirdi, redaksiya kollektivinə ən xoş arzularını bildirdi.

Mətbuat Şurasının sədri Rəşad Məcid, Milli Məclisin deputatı, "Ədalət" qəzetinin təsisçisi Aqil Abbas, vaxtilə bu rayon qəzetinin məsul katibi olmuş, Azərbaycan Dövlət Akademik Musiqili Teatrının direktoru Əliqismət Lalayev, iqtisad elmləri üzrə fəlsəfə doktoru Arif Əliyev, AYB Muğan bölməsinin rəhbəri Nəbi İbrahimov, Salyan Rayon Ziyalılar Cəmiyyətinin sədri Allahverdi Piriyev 100 yaşı tamam olan qəzetlə bağlı səmimi duyğularını bildirmişlər. Həmyerlimiz, Elm və Təhsil Mərkəzi "Təfəkkür" Universitetinin rektoru, tibb elmləri doktoru, professor Rahim Hüseynovun qəzetin 100 illiyi ilə bağlı redaksiya ünvanlanmış açıqcası oxundu.

Qəzetin baş redaktoru Rüstəm Məlikov qəzetin 100 illik yubileyi barədə ətraflı məruzə etmiş, kollektivə və oxuculara bu sevincli günü yaşatdığına görə Salyan Rayon İcra Hakimiyyətinin başçısı Sevindik Hətəmova, Azərbaycan Mətbuat Şurasına, respublikamızın tanınmış elm, sənət adamlarına, ziyalılara xüsusən, ölkədə azad mətbuatın, söz və ifadə azadlığının təminatçısı, jurnalistlərin dostu, ölkə başçımız, Ali Baş Komandanımız, hörmətli Prezidentimiz cənab İlham Əliyevə qəzetin redaksiya heyyəti adından təşəkkür və minnətdarlığını bildirdi.

Məruzə və çıxışlarda qəzetin tarixindən yadda qalan, əlamətdar hadisələr xatırlandı. Qeyd edildi ki, "Qələbə"nin ilk nömrəsi 21 fevral 1924-cü ildə işıq üzü görmüşdür. Bu nömrə tarixi sənəd kimi Əli bəy Hüseynzadə adına Salyan Rayon Tarix-Diyarşünaslıq Muzeyində saxlanılır. Qəzet "Qırmızı Muğan" (Krasnaya Muqan) adı ilə Azərbaycan və rus dillərində nəşrə başlayıb.

Salyan qəza partiya komitəsinin katibi, milliyyətcə Şamaxı malakanı olan Andrey Novaxatski hər iki dildə mükəmməl bildiyi üçün qəzetin ilk rəhbəri olmuşdur.

Bu tarixi yubiley təkcə bir təşkilatın, bir kollektivin, bir nəfərin yubileyi deyildir. "Qələbə" qəzetinin 100 illik yubileyi Azərbaycan Mətbuat tarixinin bir səhifəsidir. Bu, iftixar və qürurverici tarixdir, bölgənin mədəni həyatında çox əlamətdar hadisədir.



Qəzetə "Qələbə" adının verilməsinin maraqlı taixi vardır. Bu ad 1965-ci ildə sovetlər dönəmində ikinci dünya müharibəsində alman faşizmi üzərində qələbənin 20 illiyi şərəfinə qoyulmuşdur. Təqribən 60 ilə yaxındır ki, qəzet bu adla nəşr olunur. Bununla bərabər, qəzetin öz adını qürurla daşıması, məhz, 2020-ci ildən Vətən müharibəsi dövründə qazanılan 44 günlük tarixi zəfərdən sonra mümkün oldu. "Qələbə" qəzeti Azərbaycan xalqının qələbəsindən, doğma salyanlıların şücaətindən, şəhidlərimizin qəhrəmanlığından, qazilərin igidliyindən, Müzəffər Ali Baş Komandanımız İlham Əliyevin tarixi xidmətlərindən yazdı. Həmin istiqamətlə qəzetin fəaliyyəti bu gün də davam edir.



Əgər bu gün Salyan deyəndə, coğrafi məkan etibarı ilə Muğan düzü, ana Kür xatırlanırsa, onun tarixi-mədəni irsindən söz düşəndə isə darülmöminlərimiz, Qafqaz müsəlmanlarının dini fəaliyyətlərinə 100 il rəhbərlik etmiş şeyxislamlarımız, nəhayət, Əli bəy Hüseynzadə və digər mədəni genefond daşıyıcılarımızla yanaşı, "Qələbə" qəzeti və burada çalışmış ziyalı nəsli hörmətlə xatırlanır.



Qəzetə 100 illik tarixi ərzində 11 redaktor rəhbərlik etmiş və burada öz işinə sədaqətli yüzlərlə insan çalışmışdır. 20 ilə yaxındır ki, qəzetə rəhbərlik etmək "Tərəqqi" medallı, Ali Media və Həsən bəy Zərdabi mükafatları laureatı Rüstəm Məlikova etibar edilmişdir.

Doğma yurdun yetirmələri olan akademiklər Ağaxan Ağabəyli, Əliövsət Quliyev, Arif Məlikov, Ramiz Qurbanov, "İstiqlal" şairi Xəlil Rza, Əməkdar incəsənət xadimi Əliağa Kürçaylı, Əməkdar mədəniyyət işçisi Aşq Pənah Pənahov, professorlar Mirzağa Quluzadə, Fikrət Zərgərli, İmamverdi Əbilov və onlarla elm və sənət adamlarının həyat və fəaliyyətləri ilk olaraq "Qələbə" qəzetində işıqlandırılmışdır.

Jurnalistlərdən Əlövsət Bəşirov, Soltan Abbas, Əliqismət Lalayev, Rəhim Hüseynzadə, Qulam Sadiq, Seyran Cavadov, Fərman Əliyev, Fəxrəddin Fərzəliyev, Fazil Qəhrəmanov, Fərqanə Cəbrayılova, Təyyar Nəsirli, Əzizağa Məmmədli və Leyla Nəsirovanın ilk qələm nümunələrini məhz "Qələbə" çap etmişdir.



Tarixi yubileyi qeyd edilən "Qələbə" qəzetinin həyatında yaddaqalan hadisələr, tarixi günlər çoxdur. Sözsüz ki, onların ən şərəflisi Ulu Öndər Heydər Əliyevin Salyan rayonuna səfərlərinin gedişini ilışlandırmaq, bu mühüm tarixi hadisələrin salnaməsini yaratmaq olmuşdur.

Qəzet Salyan Rayon İcra Hakimiyyətinin diqqət, qaygısını həmişə hiss etmişdir. 22 İyul Milli Mətbuat Günü, jurnalistlərin, ziyalıların yubileyləri bir qayda olaraq yüksək səviyyədə qeyd edilir. RİH başçısı Sevindik Hətəmovun qəzetin fəaliyyətinə, onun əməkdaşlarına göstərdiyi isti münasibət kollektivə işləmək, bu qəzeti yaşatmaq üçün yeni stimul verir.

Prezident İlham Əlievin sərəncamı ilə yaradılmış MEDİA inkişaf Agentliyi, həmcinin Media haqqında yeni qanunun qəbul edilməsi Azərbaycan Mətbuatının gələcək inkişaf meyillərini müəyyən etmişdir. Bu tendensiyada region mətbuatları kimi, "Qələbə " qəzeti də öz yerini axtarmaqda, yeni tələblərə uyğunlaşmaqdadır.

Sonda yubilyar qəzetin kollektivinə Mətbuat Şurasının diplomu və Salyan Rayon İcra Hakimiyyətinin fəxri-fəmanları təqdim edilmişdir.

***Rüstəm MƏLİKOV,***
*"Qələbə" qəzetinin baş redaktoru*